BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2010*

## ƏDƏBİYYATŞÜNASLIQ

# SƏNƏTKAR ÖMRÜ
## Mehdi Hüseyn - 100

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***ifrataliyeva@box.az***

*Yeni dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan xalq yazıçısı Mehdi Hüseynin adı bu ədəbiyyatın yaranması və inkişafı ilə üzvü surətdə bağlıdır. Yaradıcılığa başladığı ilk günlərdən milli ədəbiyyatın inkişafı uğrunda gedən kəskin mübarizələrə qoşulan M.Hüseyn ədəbi hərəkatda yaxından iştirak etmiş, çox keçmədən qüvvətli nasir, dramaturq və prinsipial tənqidçi kimi tanınmışdır. Məqalədə yazıçı Mehdi Hüseynin zəngin yaradıcılığını bir daha araşdıran müəllif nasirin əsərləri barədə tam təsəvvür yaratmağa çalışmışdır.*

Əlli altı illik ömrünün qırx ilini sənətə həsr etmiş müasir Azərbaycan bədii nəsrinin görkəmli nümayəndələrindən biri olan xalq yazıçısı Mehdi Hüseynin adı bu ədəbiyyatın yaranması və inkişafı ilə üzvi surətdə bağlıdır. Orijinal yaradıcılıq xüsusiyyətlərinə malik istedadlı ədibin Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri vardır. Onun ilk qələm təcrübələri, bir sıra məqalələri 1921-ci ildə Tiflisdə çıxan "Yeni fikir" qəzetində çap olunmuşdur. 1925-ci ildə Mehdi Hüseyn ailələri ilə birlikdə Bakıya köçmüş, yeni mühit onun ədəbiyyata olan həvəsini daha da artırmışdır. Ədib tərcümeyi-halında texnikumda ona dərs demiş ədəbiyyat müəllimi olan, görkəmli yazıçı Abdulla Şaiqi minnətdarlıq hissi ilə xatırlayır. Mehdi Hüseynin ilk bədii əsəri 1927-ci ildə "Şərq qadını" jurnalında çap etdirdiyi "Qoyun qırxımı" hekayəsidir. Daha sonralar o bir-birinin ardınca "Ocaq dağında", "Arx gəlir" (mövzusu kənd həyatından götürülmüş), "Köç yolu" hekayələrini qələmə alır.

Yaradıcılığının ilk illərindən başlayaraq Mehdi Hüseyn Azərbaycan xalqının müasir həyatı ilə yanaşı, inqilabdan əvvəlki dövrü ilə də maraqlanmışdır. Belə ki, ikinci hekayəsi olan "Tunel" də çarizm zamanındakı ağır vəziyyətindən təsirli və real bir səhnə canlandırmışdır. İki il tuneldə işlədikdən sonra xəstələnib ölən qocanın dəfninə "... bir kiçik uşağın ölümü münasibətilə toplanan adamların beşdə biri belə gəlməmişdi" (5, 17).

Mehdi Hüseynin inqilabdan əvvəlki həyatı təsvir edən qəhrəmanları "Sevgidən sonra" hekayəsində olduğu kimi ictimai mühiti onlara nəsib etdiyi tale ilə barışmayan, gücləri daxilində mübarizə aparan adamlardır.

Gənc yazıçı inandırıcı surətdə göstərir ki, şəxsi mənafelərini qorumaq üçün istismarçılar tərəfindən qızışdırılan qan intiqamı köhnə kənddə hökm sürən ən vəhşi

adətlərdən biridir. Ucqar bir kənddə baş verənləri təsvir edən müəllif idarələrdəki rüşvətxorluğu, özbaşınalığı, ədalətsizliyi ifşa üçün tutarlı, xarakter cizgilər tapmışdır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, "Mehdi Hüseynin 1927-1930-cu illərdə yazdığı hekayələrində bədii ümumiləşdirmə güclüdür" (2, 208).

Doğrudur, yazıçılıq fəaliyyətinin ilk dövründə köhnə kənd Mehdi Hüseyni çox düşündürürdü. Uşaqlığı kənddə keçən, sonralar təsvir etdiyi bir sıra ədalətsizliklərin, təsərrüfatlarının dağıdılmasının, sevimli əmisinin faciəli surətdə öldürülməsinin şahidi olub, gördüklərini qüvvətli daxili duyğu ilə ürəyinə salan həssas bir gəncin bunlardan yazması təbii idi. Bir sənətkar kimi sürətlə inkişaf edən Mehdi Hüseynin təcrübəsi artdıqca, əhatə etdiyi hadisələrin dairəsi də genişlənir, canlı surətlər yaratmağa daha ciddi diqqət yetirərək müvəffəqiyyətlər qazanırdı. 1928-1929-cu illərdə yazılmış "Studentlər" hekayəsi bu cəhətdən diqqəti cəlb edir.

20-30-cu illərdə "Qadın azadlığı", yeni həyat və qadın mövzusu ədəbiyyatın əsas mövzularından olub, dramaturgiya, poeziya və nəsrdə özünün hərtərəfli inikasını tapmışdır.

C.Cabbarlı, S.Hüseyn, Simurq, Ə.Əbülhəsən, Mir Cəlal, M.İbrahimov, Əli Vəliyev, Mirzə İbrahimov, Sabit Rəhman və başqa yazıçılar qadın azadlığı düşmənlərinin, yeni həyata atılaraq insan ləyaqətlərini qoruyan, cəmiyyətin fəal qurğuları kimi yüksələn qadınların yadda qalan bir sıra tipik surətlərini yaratmışlar. Mehdi Hüseyn də bu mövzuya biganə qalmamış "Xavər" və "Bahar suları" hekayələrini yazmışdır.

Bir cəhəti nəzərə çatdırmaq zəruridir ki, bu illərdə Mehdi Hüseyn çox yazır, qızğın yaradıcılıq fəaliyyəti göstərirdi. O, ilk hekayələri ilə yanaşı A.Fadeyevin "Tarmar" romanı haqqında məqalə yazmış, "Bakıda inqilab və vətəndaş müharibəsi", "Panislamizm, imperializm və ruhaniyyət kitabları haqqında resenziya çap etdirmişdir.

1931-1932-ci illərdə Mehdi Hüseyn hekayə və oçerk çap etdirməmişdir. Bu illərdə o, "Daşqın" üzərində işləməklə yanaşı, ədəbi mübahisələrin fəal iştirakçılarından biri kimi böyük bir ehtirasla tənqid sahəsində çalışmış, mühüm ədəbi hadisələrə dair dövrü üçün əhəmiyyətli məqalələrlə çıxış etmişdir. "Daşqın"ın müvəffəqiyyətini təmin edən amillərdən biri gənc yazıçının işə özünə yaxşı məlum materialdan başlaması idi. Hadisələr Qazax rayonunda, müəllifin uşaqlıq və gəncliyinin keçdiyi yerlərdə cərəyan edir. Lakin Mehdi Hüseyn şəxsi xatirələri ilə kifayətlənməmiş, özünün dediyi kimi, "bu əsəri yazarkən lazımi arxiv materialları olmadığından, canlı adamların xatirələrindən geniş istifadə etmişdir (6).

Rəsul Rza romanın birinci hissəsinin ilk nəşrinə yazdığı müqəddimədə deyirdi: "İki dünyanın diz-dizə gəldiyi böyük günlərin yaralı səhifələri kimsənin xatirindən çıxmamışdır" (7, 3).

1933-1936-cı illərdə Mehdi Hüseyn üç hissədən ibarət "Daşqın" romanını çap etdirmişdir. Əsər vətəndaş müharibəsi və bunun nəticəsində Azərbaycan-Gürcüstan sərhədində baş verən qanlı faciələrin təsvirinə həsr olunmuşdur. Vətəndaş müharibəsi qəhrəmanları Mehdi Hüseyni yaradıcılığa başlandığı ilk vaxtlardan maraqlandırmışdır. "Əlli iki" (1929), "Studentlər" (1929) kimi hekayələrində vətəndaş müharibəsi cəbhələrində vuruşanların qəhrəmanlıq və fədakarlıqlarını göstərmək üçün ilk təşəbbüslərindən birini etmişdi.

"Daşqın" şəhər üsyanının, vətəndaş müharibəsinin ilk döyüşlərinin təsviri ilə başlanır. Bakıda yeni hakimiyyətin qalib gəlməsi ucqarlara da öz təsirini göstərmiş, əsrlərlə əzilən Azərbaycan kəndlisi öz azadlığı uğrunda mübarizəyə qalxmışdır. Xalq

hər yerdə, köhnə imtiyazlarını geri qaytarmaq istəyən daxili və xarici düşmənlərinə qarşı partizan dəstələri təşkil edir, əldə silah cəbhəyə gedir. Bu silahlı dəstələrdən birinin başında "Daşqın" romanının qəhrəmanı Sarxan durur.

Əsərdəki hadisələrin inkişafı göstərir ki, Sarxanın məktəbi – öz ağır həyatı, müəllimi isə ədalətsiz qanunlarla dolu olan zamandır. O, köhnə dünyanın doğurduğu amansız fəlakətlərlə dəfələrlə üz-üzə gəlmiş, mənliyi təhqir olunmuş, alçaldılmışdır. Lakin Sarxanı düşmənə qarşı mübarizəyə qaldıran təkcə onun şəxsi intiqam hissindən çox-çox yüksəkdə durur, xalqını və vətənini düzgün müəyyənləşdirir. Buna görə də o, xalqın mübarizəsinə rəhbərlik edən təşkilata belə raport verir: "Biz vətənimizin müdafiə səngərində ölməyə hazırıq!" (4, 315).

Bütün şəxsi arzu və əməllərini vətən və xalq işinə qurban verən Sarxan öz vədinə axıra kimi sadiq qalır. Hətta həyatda yeganə ümidi olan sevgilisi Mahirəyə bəslədiyi dərin məhəbbəti belə onu bu yoldan döndərə bilmir. O, tərəddüd etmədən cəbhəyə gedir və "vətəninin müdafiə səngərində" şərəflə həlak olur. Sarxan öləndən sonra partizan müharibəsinin alovları sönmür. Çünki vaxtilə onun dediyi kimi: "Azadlıq mübarizəsi ölməmişdir… heç vaxt ölməyəcək də!..." Sarxanın yerində onun yaxın dostu Şirəli, sevgilisi Mahirə, qaçaq Əmrah kimi qəhrəmanlar durur.

Romanın ikinci və üçüncü hissələrində Mehdi Hüseyn bizi Şirəli, dəmirçi Musa Murbalayev kimi qəhrəmanlarla yanaşı, Əmrahın həyatı ilə tanış edir. Xüsusilə, partizan dəstəsinə qoşulana qədər Əmrahın başına gələn müsibətləri, onun keçirdiyi mənəvi-cismani iztirabları təsvir edən səhnələr "Daşqın" romanının ən təsirli, yadda qalan səhifələridir.

Əsərin üçüncü hissəsində müəllif Gürcüstanda gedən inqilabi hərəkata da toxunur və bizi Simonudze, Silava, Simon kimi yeni mübarizlərlə tanış edir. Roman Gürcüstanda yeni hakimiyyətin qələbəsi ilə bitir.

30-cu illərin ikinci yarısı Mehdi Hüseynin yaradıcılıq bioqrafiyasında xüsusilə əhəmiyyətli dövrlərdən biridir. 1937-1938-ci illərdə Moskvada Dövlət Kinematoqrafiya İnstitutunda oxuyan yazıçı bir tərəfdən Moskvanın ədəbi mühiti ilə tanış olmuş, digər tərəfdən isə rus və Qərb ədəbiyyatına dair məlumatını genişləndirmişdir. Klassiklərin sənətkarlıq "sirrlərinə" bir yazıçı kimi yiyələnməsi Mehdi Hüseynə özünün zəngin təəssüratını ifadə etməkdə çox kömək etmişdir.

Tədqiqatçı alim Yəhya Seyidov yazır: "Otuzuncu illərin sonunda Mehdi Hüseynin çap etdirdiyi "Tərlan" (1940) romanı onun artıq bir nasir kimi üslubunu tapdığını göstərirdi. "Tərlan" romanı göstərir ki, artıq Mehdi Hüseyn özünəməxsus üslubu, ifadə tərzi, müəyyən yaradıcılıq planları olan yetkin bir yazıçıdır" (10, 41).

"Daşqın" romanında əlində silah yeni hakimiyyətin qələbəsi uğrunda ölüm-dirim mübarizəsi aparan qəhrəmanları indi tamamilə başqa bir cəbhədə görürük. İndiki şəraitdə bu qəhrəmanların qarşısında hakimiyyəti möhkəmləndirmək, kənddə keçid forması olan kollektivləşməni başa çatdırmaq, savadsızlığa, köhnə adət və ənənələrə qarşı mübarizə aparmaq kimi çətin və vacib tələblər dururdu.

"Tərlan" romanı məhz belə bir çətin, mürəkkəb, tarixi mübarizənin təsvirinə həsr olunmuşdur. Romanda əsas üstün qüvvə öz hüquqlarını başa vurmuş zəhmətkeş xalq və onların kənddəki fəaliyyətini təmsil edən Tərlan, Mürsəl kimi, Nadir, Məryəm, Səriyyə, Sədəf, Xanlar, Həmid kişi qabaqcıl adamlardır.

Tərlan çox ağır bir şəraitdə fəaliyyət göstərir. Kənddə kolxoz yenicə təşkil edilmişdir. Texniki gerilik, tez-tez baş verən təbii fəlakətlər vəziyyəti daha da ağır-

laşdırır. Yenilik hər addımda güclü müqavimətə rast gəlir. Belə ağır, mürəkkəb bir şəraitdə mübarizə aparan Tərlan öz təravətini, sayıqlığını, səbir və təmkinini itirmir. Özü bu inamla yaşadığı kimi, başqalarına da onu aşılamağı bacarır. Tərlan həmçinin təmiz əxlaqlı, xeyirxah təbiətli, prinsipial, qayğıkeş bir insandır. Bütün bu siyasi, mənəvi, əxlaqi keyfiyyətlərinə görə kəndlilər Tərlanı sevir, ona inanır, arxasınca gedirlər.

"Tərlan" romanı, tarixi həqiqətə uyğun olaraq, kənddə kolxoz quruluşu və yeni həyat normaları uğrunda mübarizə aparan xalq kütlələrinin qələbəsi ilə bitir. Yeni quruluşun düşmənləri ifşa olunur.

Mehdi Hüseynin yaradıcılığında müasir həyatın təsviri ilə yanaşı, tarixi mövzular da geniş yer tutur. Onun tarixi hadisələrə həsr etdiyi ilk əsərləri içərisində "Komissar" povesti öz bədii dəyərinə görə nəzəri daha çox cəlb edir.

Bu povestdə Azərbaycan xalqının sədaqətli oğlu Məşədi bəy Əzizbəyovun həyat və yaradıcılığından bəhs olunur. Əsər bir-birini tamamlayan kiçik hekayələr şəklində yazılmışdır. Bu hekayələrdə M.Əzizbəyovun geniş fəaliyyətinin müxtəlif dövrləri təsvir olunur. Uşaqlıq illərini Bakıda keçirən M.Əzizbəyovu sonralar Peterburqda ali təhsil alan bir tələbə kimi görürük. O, burada gizli tələbə dərnəkləri ilə əlaqəyə girir, inqilabi ideyalarla tanış olur, ilk mübarizə dərsi keçir, şübhəli fəaliyyət üstündə həbs edilir. Bakıya qayıtdıqdan sonra bütün həyatını zəhmətkeş xalqın azadlıq uğrunda mübarizə işinə bağlayır. Beləliklə, o, adi bir mühəndis vəzifəsindən görkəmli dövlət xadimi səviyyəsinə yüksəlir.

Mehdi Hüseyn çoxcəhətli yaradıcılığa malik bir sənətkardır. O, ədəbiyyatın başqa sahələri ilə bərabər, dramaturgiya ilə də yaxından məşğul olmuş, 1928-1944-cü illərdə "Şöhrət", "Şamil", "Nizami", "Cavanşir", "İntizar" pyeslərini yazmışdır. M.Hüseynin "Şamil", "Nizami", "Cavanşir" dramları ədəbiyyatımızın tarixində xüsusi yeri olan gözəl sənət nümunələridir. Şamil, Nizami, Cavanşir kimi kamil obrazların həyatı, yüksək qayə və əməlləri göstərir ki, doğma vətəninin qayğıları ilə yaşayan, xalqla birlikdə mübarizə aparan böyük şəxsiyyətlər, qəhrəmanlar cismən məhv olsalar da, mənən ölmürlər. Onlar zaman keçdikcə qeyrət, mübarizə rəmzinə dönür, gələcək nəsillər üçün əbədi nümunə və örnəyə çevrilirlər. Vaxtilə akademik M.Arif S.Vurğunun dramlarından söhbət açarkən deyirdi: "Səməd Vurğunun tarixi dramları səhnəmizdə yeni bir üslubun yaranmasına səbəb olmuşdur. Bu üslubu şərti olaraq tarixi qəhrəmanlıq üslubu adlandırırıq. Buraya Mehdi Hüseynin "Nizami" və "Cavanşir" dramlarını və Süleyman Rüstəmin "Qaçaq Nəbi" dramını da daxil etmək olar" (1). Tənqidçi Əkbər Ağayev isə yazırdı: "... bu əsər bizim teatrımızda "Vaqif"lə açılmış yolun, yeni, lakin xüsusi bir mərhələsidir" (3).

Bir kinodramaturq kimi də Mehdi Hüseynin fəaliyyəti diqqətəlayiqdir. Onun "Fətəlixan" və "Qara daşlar" ədəbi ssenariləri əsasında filmlər çəkilmişdir. Yazıçının "Şair" ssenarisi oxucularımızın böyük məhəbbətini qazanmışdır.

Vətən müharibəsi illərində Mehdi Hüseyn tarixi dramları ilə yanaşı, bir çox hekayə, povest və oçerk də yazmışdır. Həmişə zamanın vacib tələblərinə cavab verməyə çalışan M.Hüseynin "Nişan üzüyü", "Çiçəklər", "Dost", "Cəbhə xatirələri", "Möcüzə", "Qanlı sular", "Satqın" kimi hekayələri və 1944-cü ildə yazdığı "Fəryad" povesti bu mövzulara həsr olunmuşdur.

Təsadüfi deyildir ki, 40-50-ci illərdə yazdığı əsərlərdə müəllif üslub rəngarəngliyinə, ifadə zənginliyinə, kompozisiya və süjet məsələlərinə, obrazların psixoloji aləmini açmağa, onları daha dinamik şəkildə, inkişafda, dəyişmədə verməyə, ümumiy-

yətlə, sənətkarlıq məsələlərinə xüsusilə diqqət yetirir.

Bu nöqteyi-nəzərdən Mehdi Hüseynin "Abşeron" romanı yazıçının yaradıcılığında inamlı bir dövr təşkil edir. Əsərin mövzusu Xəzərin qoynunda neft yataqları kəşf edən, buruq qazan, məmləkətimizin sərvətlərini daha da artıran Bakı fəhlələrinin əmək və mübarizəsindən götürülmüşdür.

"Abşeron" əsərinin məziyyəti ondadır ki, romanda ən vacib və müasir məsələlərin həlli öz əksini tapmışdır. Mehdi Hüseyn də "Abşeron" romanını yaradarkən məhz bu yolla getmiş, əsrimizin müsbət qəhrəman obrazını yaratmağa çalışmışdır.

Mehdi Hüseyn son məqalələrindən birində etiraf edir ki, "Mən şəxsən möhkəm iradəyə malik və öz məqsədləri üçün son dərəcə həyat münaqişələri şəraitində inkişaf etdirilən müsbət qəhrəman yaratmağı sevən yazıçıyam" (4, 311).

"Qara daşlar" romanında da yazıçı müsbət qəhrəman obrazı yaratmışdır. Müəyyən dərəcədə "Abşeron" romanının davamı olan "Qara daşlar" əsərində biz silsilə müsbət qəhrəmanlarla tanış oluruq. Yazıçının müsbət qəhrəmanları xalqın böyük səadəti və gözəl güzəranı uğrunda mübarizə aparırlar. Bu mübarizə onların başlıca həyat məqsədidir.

Müasir mövzularda yazan sənətkarlarımız, o cümlədən Mehdi Hüseyn öz bədii əsərləri ilə sübut etmişdir ki, zaman məsafəsi uydurma və saxta bir nəzəriyyədir. Mehdi Hüseyn hadisələrin həyatı, psixoloji əsaslarını çox incə cizgilərlə verməyi bacaran sənətkarlarımızdan olmuşdur. O, insanı dünyagörüşü, fikir və adətləri ilə əlaqədar şəkildə əks etdirir. Tənqidçi alim İ.İbrahimovun yazdığı kimi "istər "Tərlan", istərsə də "Abşeron" və ya "Qara daşlar" romanları göstərir ki, Mehdi Hüseyn portret ustasıdır" (9).

"Abşeron" romanından sonra M.Hüseyn yenidən tarixi mövzuya qayıtmış və xalqımızın inqilabi keçmişindən bəhs edən "Səhər" romanını yazmışdır. Romanın əsas bədii konflikti bir-birinə zidd olan qüvvələrin barışmaz ictimai mübarizəsi üzərində qurulmuşdur. Tarixi gerçəklik yazıçı tərəfindən tam bədii şəkildə işlədiyindən, təsvir olunan hadisələr dolğun və inandırıcı çıxmışdır. Əsər "Narahat şəhər", "Oyanmış kənd" başlıqları altında iki hissəyə ayrılmışdır.

"Səhər" romanında baş qəhrəman geniş xalq kütləsidir. Əməkçi xalqı Bayram, Əzizbəyov, Səlminaz, Xanlar, Smirnov, Orlov, Aslan, İskəndər, Pəri nənə kimi ləyaqətli adamlar təmsil edirlər. Müəllif tarixin inkişafını və yüksəlməkdə olan inqilabi hərəkatın səciyyəvi cəhətlərinin müxtəlif dünyagörüşünə, düşüncə tərzinə, fərdi xüsusiyyətlərinə malik bu surətlərin simasında ümumiləşdirmişdir.

"Səhər" romanında xalqlar dostluğu ideyasına da geniş yer verilmişdir. Bu dostluq ideyası əsərdə müxtəlif millətlərdən olmasına baxmayaraq düşmənə qarşı bir cəbhədə vuruşan xalq kütlələrinin mübarizəsinə təkan verən, onları birləşdirən bir qüvvədir."Abşeron"un davamı olan "Qara daşlar" romanında Mehdi Hüseyn neft sənayesində çalışan işçilərimizin həyatına yenidən müraciət etmişdir. Əsərin konflikti dəniz buruqları hesabına neft istehsalını daha da yüksəltməyə çalışan usta Ramazan, Tahir, Qüdrət İsmayılzadə, Aslanov, geoloq Şeyda kimi namuslu, işgüzar adamlarla yüksək mövqelərdən istifadə edərək onlara hər vasitə ilə mane olmağa çalışan Xəlilov, Mollayev kimi ikiüzlü, mənsəbpərəstlər arasında gedən mübarizələr üzərində qurulmuşdur.

Mehdi Hüseyn "Abşeron", "Səhər", "Qara daşlar" romanlarından sonra yenidən dramaturgiyaya qayıdaraq tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanan "Alov" pyesini yazmışdır.

Döyüşkən, mübariz bir sənətkar olan M.Hüseyn, ilk növbədə, öz dövrünün öv-

ladı, həqiqi vətəndaşı olmuşdur. Bütün ömrü boyu ədəbiyyatımızın, mədəniyyətimizin keşiyində dayanan Mehdi Hüseynin ədəbi irsi daima dövlət tərəfindən öz layiqli qiymətini almışdır.

Təsadüfi deyildir ki, ulu öndərimiz Heydər Əliyev vaxtaşırı ədəbiyyat və incəsənət sahəsində xidmətləri olan sənətkarlarımızın yaradıcılığını daim izləyər, onların şərəfli əməyinə yüksək qiymət verərdi. Bu gün ulu öndərimizin sağlam məfkurəli işlərini ləyaqətlə həyata keçirən İlham Əliyev cənablarının xalq şairi Mehdi Hüseynin anadan olmasının 100 illik yubileyinin keçirilməsi barədə imzaladığı sərəncam biz ziyalıların fərəhinə və sevincinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Arif M. Ədəbi tənqidi məqalələr. Bakı: Azərnəşr, 1958, 441 s.
2. Əlimirzəyev X. Mehdi Hüseyn. Müasir Azərbaycan ədəbiyyatı. Bakı: BDU, 2007, 562 s.
3. "Ədəbiyyat" qəz. Bakı, 1942, 25 avqust.
4. M. Hüseyn. Seçilmiş əsələri. 10 cilddə, III c. Bakı: Azərnəşr, 1958, 543 s.
5. M. Hüseyn. Xavər, Azərnəşr, 1930, 182 s.
6. M. Hüseyn. Xatirələrim. "Kommunist" qəz., 1935, 23 aprel
7. M. Hüseyn. Daşqın. Bakı: Azərnəşr, 1933, 364 s.
8. M. Hüseyn. Seçilmiş əsərləri, 3 cilddə, III c. Bakı: Avrasiya Press, 311 s.
9. İbrahimov İ. Mübariz sənətkarın yaradıcılıq yolu //Azərbaycan jurnalı, 1959, №4, 224 s.
10. Seyidov Y. M.Hüseynin yaradıcılıq yolu. Bakı: Azərnəşr, 1966, 251 s.


## ЖИЗНЬ ХУДОЖНИКА


**И.С.АЛИЕВА**


## РЕЗЮМЕ


Имя одного из видных представителей современной азербайджанской художественной прозы, народного писателя Мехти Гусейна, посвятившего искусству 40 из своих 56 лет, органически связано с возникновением и развитием этой литературы. Первые опыты его пера были опубликованы в газете «Yeni fikir» («Новая мысль»), выходившей в Тифлисе с 1921 года.

Мехти Гусейн – художник, обладающий разносторонним творчеством. Его характерные рассказы, глубоко содержательные повести, романы «Дашгын», «Гарлан», «Сехер» («Утро») и наряду с ними драмы «Шохрет», «Шамиль», «Низами», «Джаваншир», «Алов» как прекрасные образцы исскуства занимают достойное место в истории нашей литературы.

В статье в связи с 100 летним юбилеем писателя еще раз проанализована его напряженная творческая деятельность, привлечены к анализу важные, неотъемлемые стороны жизни художника.


## THE WRITER LIFE


**İ.S.ALIYEVA**


## SUMMARY


The prominent folk writer Mehdi Huseyn has an irreplacable role in the appearance and development of modern Azerbaijan prose. He began his litetary activity in 1921 in the newspaper of "New Path" published in Tiflis and devoted 40 years of his life to the literary activity. The article is devoted to M.Huseyn's literary activity and analyzes inherent and essential sides of his life.